**Zeynalova A.N.** [47]

# MƏN BİR SUSMAZ DUYĞUYAM Kİ...

**C.Cabbarlı mədəniyyətimizin, ədəbiyyatımızın böyük, dahi insanlarından biridir. Azərbaycan ədəbiyyatının, Azərbaycan milli şüurunun inkişafında onun nə qədər böyük xidmətləri olubdur! Onun yaratdığı əsərlər neçə-neçə nəsilləri tərbiyə edib və yüksəldibdir.**
**Heydər Əliyev**

"Elə insanlar olur ki, onların tərcümeyi-halını yazmaq üçün, hər şeydən əvvəl onun mənsub olduğu xalqın, ölkənin tarixini yazmaq lazımdır" – bu sözləri C.Cabbarlı 1928-ci ildə böyük Azərbaycan aktyor və rejissoru Abbas Mirzə Şərifzadənin səhnə fəaliyyətinin 20 illiyinə həsr olunmuş "Əsl ustada alqış" məqaləsində yazmışdı. Onun yazdığı bu fikirləri elə onun özünə də şamil etmək olar.

Azərbaycan ədəbiyyatının parlaq nümayəndələrindən olan Cəfər Cabbarlının anadan olmasından 125, vəfatından isə 90 il ötür. Bu böyük dramaturq, nasir, şair, publisist, rejissor, jurnalist, tərcüməçinin zəngin yaradıcı irsi bədii klassikamızın qızıl fonduna daxil edilmişdir.

Cəfər Cabbarlı 1899-cu ildə Xızıda anadan olmuşdur.Atasını erkən itirən Cəfər, çətinliklə də olsa anasının sayəsində təhsil ala bilmişdi. Gənc Cəfər əvvəl mollaxanada, sonra isə rus-tatar məktəbində oxumuşdu. 1917-ci ildə o, Bakı politexnik məktəbinin elektromexanika şöbəsinə daxil olur. Cəfər Cabbarlının istedadı çox tez üzə çıxır. Onun ilk müəllimləri arasında Abdulla Şaiq, Süleyman Sani Axundov kimitanınmış yazıçılar olmuşdu ki, onlar da gələcək yazıçının formalaşmasında mühüm rol oynamışdılar. Həmçinin gənc Cəfərin yaradıcılığının formalaşmasına Sabirin satiraları və Axundzadənin nəsr əsərləri də təsir göstərmişdi. Cabbarlı sonrakı təhsilini teatr məktəbində, daha sonra isə Azərbaycan Dövlət Universitetində almışdır.

Azərbaycan ədəbiyyatını, mədəniyyətini, incəsənətini Cəfər Cabbarlısız, onun tarixi pyesləri olan "1905-ci ildə", "Nəsrəddin–şah", "Od gəlini", tamamlanmamış "Əfqanıstan", klassik pyesləri-"Aydın", "Oqtay Eloğlu", "Sevil", "Almas", "Yaşar", "Dönüş" və daha neçə-neçə əsər, kinosenarisiz təsəvvür etmək mümkün deyildir. Onun mədəniyyət və incəsənət sahəsindəki təşkilatçılığı, teatr və kinodakı işi, quruluşçu-rejissor kimi çətin və yorulmaz fəaliyyəti Azərbaycan dramaturqları üçün əvəzolunmaz bir məktəb olmuşdur.

Yazıçı gənc yaradıcı kadrlara qayğı ilə yanaşar, istedadlı yazarlara arxa-kömək olmaqla onları haqsız tənqidlərdən, həmlələrdən qoruyardı. C.Cabbarlı Ş.Bədəlbəyli, A.Ağdamski, A.İsmayılsadə, A.Qəmərli və bir çox başqalarının, xüsusilə də gənc Azərbaycan aktrisaları olan S.Hacıyeva, M.Davudova, Əzizə xanım, T.Paşazadə, Ş.Məhərrəmova, Züleyxa, Fatma xanım, Cəvahir İsrafilovanın yaradıcı talelərinə böyük təsir göstərmişdi.

Milli teatrın inkişafında C.Cabbarlının tərcüməçilik fəaliyyəti də az rol oynamamışdı. Şekspirin "Hamlet", Şillerin "Qaçaqlar", Bomarşenin komediyaları, L.N.Tolstoyun, A.M.Qorkinin əsərlərinin tərcümələri bu gün də öz əhəmiyyətini itirməmişdir. Onlar Cabbarlının bədii tərcümə sahəsindəki fəaliyyətinin gözəl nümunələridir.

Cabbarlı ədəbiyyata şeirlə gəlmişdi. Onun ilk mətbu şeirləri 1911-ci ildə "Həqiqəti-Əfkar" qəzetində dərc olunmuşdur. 1915-ci il aprel ayının 3-də "Məktəb" jurnalının 6-cı nömrəsində onun "Bahar" adlı şeiri nəşr olunmuşdu. 1915-ci ildə "Qurtuluş" jurnalı tərəfindən elan edilmiş müsabiqədə Cabbarlının "Qürub çağı bir yetim" şeiri birincilik qazanaraq Sabirin "Hophopnamə"si və "Qurtuluş" jurnalının birillik abunəsi ilə mükafatlandırılmışdı.

C.Cabbarlı yaradıcılığı çoxşaxəlidir. Onun həm nəsr, həm poeziya, həm də dramaturgiya sahəsində yazdığı əsərləri paralel olaraq eyni müvəffəqiyyətlə inkişaf edirdi. Hələ 1923-1926-cı illərdə"Tuti", Babayi-Əmir", "Maarif və mədəniyyət", "Molla Nəsrəddin"jurnallarının səhifələrindəki satirik çıxışlarında və həmçinin özünün ilk şeirlərində ictimai, sosial nöqsanları tənqid edir, xalqın hüquqsuzluğundan açıq danışırdı: "Qızlardan kişilərə protesto", "Arzu", "Qadınlar deyirlər", "Kişilər deyirlər", "Etiraf", "Qolçomaq" və s. C.Cabbarlı şeirlərində doğma torpağın hər qarışını, onun gözəlliklərini, təkrarsız təbiətini vəsv edir: "Ölkəm", "Mahnı", anaya yüksək məhəbbət və ehtiramla yazılmış "Ana", sevgiyə həsr olunan "Yadıma düşdü", "Qoy olsun", "Gözlər" və s.

C.Cabbarlının gözəl şeirlərindən biri onun məşhur "Ana" şeiridir. Bu şeirdə ədib anasına olan düşkünlüyünü təsvir edir. Şeiri o öz anasına həsr etsə də, onu bütün analara şamil etmək olar. O deyir ki, əgər bütün bəşəriyyət mənə qarşı çıxsa,qiyamət qopsa, ətrafımı pələnglər, bütün vəhşi heyvanlar sarsa, cəllad başımın üstünü alıb məni öldürməklə hədələsə belə əyilmərəm, baş əymərəm. Lakin elə bir güclü, zəif qüvvə var ki, onun qarşısında diz çökərəm:

Cahanda yox elə bir qüvvə baş əyim ona mən,
Fəqət nə güclü, zəif bir vücud var, yahu,
Ki, hazıram yıxılıb xaki-payinə hər gün,
Öpüm ayağını əcz ilə. Kimdir o? Nədir o?

Ana! Ana!.. O adın qarşısında bir qul tək
Həmişə səcdədə olmaq mənə fəxarətdir,
Onun əliylə bəla bəhrinə yuvarlansam,
Yenə xəyal edərəm bəzmi-istirahətdir.

---

[47] **Milli Aviasiya Akademiyası**

C.Cabbarlı "Ölkəm" şeirində vətənimizin yaşıl meşələrini, buz bulaqlarını, geniş, bərəkətli çöllərini, dənizlərini, neftlə zəngin torpağını tərənnüm edir:

Şiş ucları buludlarla döyüşən
Dağlarında buzları var ölkəmin.
Göy otlardan ipək paltar geyinən
Tarlaları, düzləri var ölkəmin.

Bu şeirə görkəmli bəstəkar Asəf Zeynallı gözəl bir romans bəstələmişdir. Böyük Bülbül isə onu özünəməxsus bir şövqlə ifa etmişdir. Cəfər Cabbarlı, Asəf Zeynallı və Bülbül kimi üç nəhəngin tandemi bir şedevr yaratmışdı. Bu əsər bu gün də sevilə-sevilə dinlənilir.

"Ölmək" şeirində isə o, dünyanın gərdişinə fəlsəfi yanaşmışdır:

Ölmək! O geniş körpüdən hər kəs keçəcəkdir,
Bir badə ki, ondan bütün aləm içəcəkdir!
Hər süslü çiçək sonda saralmış quru yarpaq,
İnsan da nədir? Əvvəli torpaq, sonu torpaq!
Aləm doğacaq, dirçələcək, məhv olacaqdır,
Dünya boş ikən əvvəli, həp boş qalacaqdır.
Bir tək səni məhv etmədi bu qanlı təbiət,
Həp yoxluğa, həp heçliyə məhkum bəşəriyyət.

C.Cabbarlının ən çox bəyənilən lirik şeirlərindən biri də "Mən bir susmaz duyğuyam ki..." şeiridir. Təsadüfü deyildir ki, bu şeirin bir misrasını məqaləm üçün başlıq kimi seçmişəm:

Mən bir solmaz yarpağam ki, çiçəkləri bəzərəm,
Mən bir susmaz duyğuyam ki, ürəkləri gəzərəm.
Mən səninçün ömrüm boyu cəfalara dözərəm,
Sənsiz güllər açılmasın, axar çaylar dayansın,
Oxu bülbül, bəlkə yarım oyansın!..

Qeyd etdiyimiz kimi C.Cabbarlının yaradıcılığı çoxşaxəlidir. Onun güclü musiqi duyumu var idi, muğamlarımıza dərindən bələd idi. O yazdığı şeirlərin bəzilərinə özü musiqi bəstələmiş, həmçinin pyeslərinin qəhrəmanlarının oxuduqları mahnıların sözləri ilə yanaşı, musiqisini də özü yazmışdı. Bir neçə misal gətirək:

**"Qurban ollam nazına"**

**"Qarabağın dağlarında"** ("1905-ci ildə" pyesində Allahverdi ilə İmamverdinin birgə oxuduqları mahnı).

**"Azad bir quşdum"** ("1905-ci ildə" pyesində Sonanın mahnısı).

Bu mahnı mərhum xanəndəmiz Səxavət Məmmədovun ifasında xüsusi bir yanğı ilə səslənirdi.

**"Sənin dərdindən"** ("Yaşar" pyesində Yaqutun mahnısı).

**"Mən bir solmaz yarpağam ki..."** ("Od gəlini" pyesində Solmazın mahnısı) və daha neçə-neçə bəstələr.

C.Cabbarlı şeirlərinə bir çox bəstəkarlar da müraciət etmiş və gözəl mahnılar yazmışlar. Fikrət Əmirov, Asəf Zeynallı, Oqtay Kazımi, Cavanşir Quliyev, Süleyman Ələsgərov, Rauf Hacıyev, Əfrasiyab Bədəlbəyli, Səid Rüstəmov və bir çox müasir Azərbaycan bəstəkarlarının C.Cabbarlının sözlərinə bəstələdikləri mahnılar bu gün də maraqla dinlənilir.

C.Cabbarlının inqlabdan sonrakı yaradıcılığı dövrünün aktuallığını bu gün də itirməyən yeni mövzularla zəngindir. "Aslan və Fərhad", Mənsur və Sitarə", "Gülzar" və b. hekayələri,"Nəsrəddin-şah", "Vəfalı Səriyə", "Solğun çiçəklər" kimi pyesləri siyasi və sosial azadlığa, yeni həyata, qadın azadlığına bir çağırış kimi səslənir.

Bu dövrdə yazıçının bir-birinin ardınca "Od gəlini", "Sevil", Almas". "Yaşar", "Dönüş", "Oqtay Eloğlu", "Aydın" kimi pyesləri işıq üzü görür. Bu əsərlərin mövzuları müxtəlif olsa da, onların hamısını haqsızlığa qarşı, yeni həyat uğrunda mübarizə, bu yolun nə qədər əzablı, məşəqqətli, sınaqlarla dolu olmasına baxmayaraq, tunelin sonunda görünən işığın olması ideyası yaxınlaşdırır.Cabbarlı pyeslərinin qəhrəmanlarını eyni arzu-istəklər, eyni ideal və məqsədlər birləşdirir:

**Aydın** ("Aydın" pyesindən). Mən elə bir dünya istəyirəm ki,.. orada zülm zəncirləri, qızıl, dəbdəbə olmasın... orada hər kəs öz əməyinin sahibi olsun.

**Oqtay** ("Oqtay Eloğlu" pyesindən). Elə həyat qurmaq olardı ki,burada hər söz qanun kimi səslənərdi, düzgünlük hər yerdə qələbə çalardı.

**Elxan** ("Od gəlini" pyesindən). Mənim yolum - heç kimin cılız "mənim" sözünün olmadığı azad bir dünyaya aparır... Azad sevgi, azad arzular, istəklər, fikirlər, azad hərəkətlər – bax, budur mənin qanunum.

C.Cabbarlı "Sevil"pyesində qadın azadlığı problemini önə çıxarır, bu azadlığa nail olmaq üçün mübarizə yollarını göstərir. Əsərin əsas qəhrəmanı olan Sevil nadan, çadralı, müti bir qadından, oxumuş, savadlı bir qadına çevrilir. Onun yazdığı "Azərbaycan qadınının azadlıq yolu" adlı kitabı milyonlarla azərbaycanlı qadının azadlıqlarına qovuşmaları yolunda bir mayağa çevrilmişdi. Təbii ki, bu birdən-birə, asanlıqla baş vermir. Oxucu əsərlə tanış olduqca gözlərinin önündə bu avam, savadsız, kölə təbiətli qadın addım- addım dəyişir, onda qürur hissi baş qaldırır, ərinin əxlaqsız hərəkətlərinə artıq göz yummur, necə deyərlər, "təşt-tabağı sındırır, taxça-boxçanı uçurur."

C.Cabbarlının maraqlı əsərlərindən biri də "Almas" pyesidir.Əsərdə 1920-ci ilin Azərbaycan kəndi, burada gedən sinfi mübarizə öz əksini tapmışdı. Əsərin qəhrəmanı gənc müəllimə Almas 20-ci illərin sonunda ucqar bir kəndə işləməyə gəlir. Ölkədə yeni dövr başlamasına baxmayaraq, bu ucqar kənddə hələ də keçmişin qalıqları olan avam, nadan, heç bir yeniliklə barışmayan Hacı Əhmədlər, İbadlar, Kərbəlayi Fatmanisələr ağalıq edirlər, necə deyərlər, at oynadırlar.

Almasın gəlişindən sonra Barat, Gülverdi, Temurtaş, qoca Aftil, Allahverdi və onlar kimi kasıb, lakin yeni həyatın, dəyişikliklərin tərəfdarı olan kəndlilərin köməyi ilə müəyyən irəliləyişlər baş verir. Kolxoz işinin təşkili, kənd məktəbində tədrisin bərpası, kasıbların vəziyyətinin müəyyən qədər yaxşılaşması, Almasa bir müəllim kimi insanların inamının artması əvvəlki ağaların isti aşına soyuq su qatır, yuxularını ərşə çəkir. Onlar gənc müəlliməyə qarşı intriqalar yaradır, ona böhtan atmaqdan, onu əxlaqsızlıqda günahlandırmaqdan belə çəkinmirlər. İş o yerə çatır ki, Almasın 23 yaşlı nişanlısı Fuad, kənd sovetinin katibi Şərif belə onların təsiri altına düşür. Maskalanaraq əsl simalarını gizlətməyə çalışan Hacı Əhməd, kənd sovetinin sədri Balarza, Mirzə Səməndər, Şərif kimilərinin ifşa olunması, Yaxşı, Ocaqqulu və digər kəndlilərin yeniliyi qəbul etmələrinə, inkişaflarına yardım edir. Almasın heç nədən qorxmayaraq bütün çətinliklərə sinə gərməsi, hiyləgər, güclü, mənfur düşmənlərə qarşı çətin mübarizə apararaq qalibgəlməsi yeni quruluşun gücünü və geriyə dönüşü olmadığını göstərir.

"Almas" pyesi Azərbaycan ədəbiyyatı və dramaturgiyasının inkişafında müstəsna rol oynamışdır.

"Almas" pyesi ilə bağlı bir məsələni xüsusi qeyd etmək istəyirəm. Bildiyimiz kimi bu pyes müxtəlif vaxtlarda, müxtəlif rejissorlar tərəfindən respublikamızın tanınmış teatrlarında tamaşaya qoyulub və uzun müddət teatrların repertuarından düşməmişdir. C.Cabbarlının anadan olmasının 125-ci ildönümü ilə əlaqədar olaraq və əsərə olan marağı nəzərə alaraq bu pyesin motivləri əsasında "Vətəndaş A" adlı yeni serial çəkilib.Yəni, 93 il sonra "Almas" əsəri yeni quruluşda təqdim olunur. Bu quruluşda təhsilin, elmin və qadının gücü ilə cəmiyyətin inkişafı ön plana çəkilir. Ümidvarıq ki, bu yaxınlarda maraqlı ekran əsəri tamaşaçıların ixtiyarına veriləcəkdir.

C.Cabbarlının sevilən dram əsərlərindən biri də"Yaşar" pyesidir. Ümumiyyətlə, onun dram əsərlərində mövhumatla, nadanlıqla mübarizə, yeni həyatı, dəyişiklikləri qəbul etməyən, öz əlverişli mövqelərini itirməkdən qorxan, onları saxlamaq uğrunda heç nədən çəkinməyən, bütün iyrənc üsullara əl atan mənfi ünsürlərə qarşı savaş qırmızı xətlə keçir.

Belə tiplərlə qarşı-qarşıya gələn, onlarla mübarizədə böyük çətinliklərlə üzləşənlərdən biri də gənc alim-mühəndis Yaşardır. Onun və digər işıqlı fikir sahibi olan gənclərin ətrafında öz zəhərli torlarını quran İmamyar, Türbət və Mirzəqulu stansiyanı və gənc mütəxəssislərin elmi eksperimentlərini məhv etməyi qarşılarına məqsəd qoyublar. Bununla da son nəfəsini verməkdə olan köhnəliyin tərəfdarları yeni həyatın qurucuları olan Yaşar, Yaqut, Tanya, professor Belokurov,kəndlilər, tələbələr, gənc fəhlələr və bütün yeni fikirli insanlara mane olmağa çalışırlar. Bu da C.Cabbarlının "Yaşar" pyesinin əsas süjet xəttini təşkil edir.

Bir dramaturq kimi fəaliyyət göstərən C.Cabbarlı akademik teatrın ənənələrini yaxşı bilirdi. O, milli incəsənətin, milli mədəniyyətin dirçəlməsini alqışlayır, bu prosesə bütövlükdə mədəniyyətin inkişafının bir parçası kimi baxırdı. Bunun bariz nümunəsi böyük dramaturqun "Dönüş" pyesidir. Öz professional teatr təhsilini Moskvada alan baş qəhrəman Gülsabahın taleyi əsərin əsas süjet xəttini təşkil edir. C.Cabbarlı Azərbaycan teatrının gerikliklə, köhnə fikirlərlə mübarizəsindəki qətiyyətli dönüşünü, gənc aktyor və aktrisaların aktiv fəaliyyətini alqışlayır.

İllərlə teatrda işləmələrinə baxmayaraq səhnə hərəkətlərini mənimsəməyən, bəzən oynadıqları rolun sözlərini belə tam bilməyən Xasməmməd, Asya, Xurşud xanım, Mizə Camal özlərinin keçmişdəki teatra olan "xidmətlərini" qabardaraq gənc aktyor və aktrisaların önünü kəsir, bu savadlı, hazırlıqlı gənc mütəxəssislərin qanuni və haqlı tələbləri ilə razılaşmırlar.Nəhayətində isə məğlub olaraq geri çəkilirlər – həyat öz hökmünü verir. Keçmişlə gələcəyin, köhnə ilə təzənin mübarizəsi bu əsərdə də ön plana çəkilir. Gülsabahın və onun timsalında incəsənətin qarşısındakı alicənab məqsəd konfliktin məğzini dəyişir. Gülsabah Asyaya, Xurşud xanıma öz kömək əlini uzadır, onlara yarışmağı, ümumi işin xətrinə sülh şəraitində çalışmağı təklif edir. Bu zaman yeni incəsənət uğrunda mübarizədə hərə özünü səfərbər olan bir əsgər kimi hiss edəcək.Pyesin qəhrəmanlarının ədəbiyyat və incəsənət problemləri ətrafındakı mübahisə və diskussiyaları incəsənət sahəsində də yenidənqurmanın sürətlə getdiyindən xəbər verir.

C.Cabbarlının tarixi pyesləri olan "Nəsrəddin-şah", "Od gəlini", "1905-ci ildə" əsərləri Azərbaycan xalqının tarixinin müxtəlif mərhələlərini əhatə edir. Məqsəd isə birdir – gələcək uğrunda aktiv mübarizə. Bunu biz "Od gəlini" pyesinin qəhrəmanı Elxanın monoloqunda görürük: "...mənim üçün dünyada qanun yoxdur. Ən ali qanun – şəxsiyyətin azadlığıdır. Mən sizin var-dövlətinizi qoruyan, əsarətinizə haqq qazandıran, hökmranlığınızı möhkəmləndirən saxta qanunları, yalançı dinləri tanımıram. Mənim tanrım - ətrafdakılara heç bir zərər yetirməyən mənim azad arzularımdır..."

Böyük Azərbaycan yazıçısı, şairi, dramaturqu, teatr xadimi və hətta bəstəkarı Cəfər Cabbarlının yaradıcılığı bu gun də xalqımıza xidmət edir və sevilir. Onun 20 illik yaradıcılıq həyatında yazdığı əsərlər, yaratdığı obrazlar bu gün də aktualdır, bu gün də sevilə-sevilə oxunur.

C.Cabbarlının şəxsiyyəti öz müasirləri və sonrakı nəsillər tərəfindən yüksək qiymətləndirilmişdir. Məşhur şair və yazıçılardan bir neçəsinin Cəfər Cabbarlı haqqındakı fikirlərini təqdim edirəm.

**Səməd Vurğun:** Cabbarlı kimdir? Onun Azərbaycan ədəbiyyatındakı mövqeyi necədir? Bu suallara cavab vermək üçün onun bizə miras qoyduğu ədəbi xəzinəni uzun illər araşdırmaq lazımdır. Cabbarlı – XX əsr Azərbaycan ədəbiyyatı tarixinin ən nadur nümayəndələrindəndir.

**Süleyman Rüstəm:**C.Cabbarlı bizi gənc yaşında tərk etdi. O bizim xalqımız üçün hələ neçə-neçə qiymətli əsərlər yarada bilərdi. Onun yoxluğu ədəbiyyatımız üçün böyük itkidir. Biz onunla təsəlli tapırıq ki, Cabbarlının əsərləri daima yaşayacaqdır. Bu o deməkdir ki, Cəfər də daima yaşayacaqdır.

**Rəsul Rza:**Kim deyə bilərdi ki, illər ötəcək, biz öz əziz dostumuz, qardaşımız, xalqımızın böyük istedadlı nümayəndəsi haqqında xatirələr yazacağıq.

**Aleksandr Fadeev:** Təəssüflər olsun ki, Azərbaycan dramaturgiyası Cəfər Cabbarlının simasında özünün ən yaxşı nümayəndəsini itirdi.

**Mikayıl Müşviq:**Cəfər Cabbarlı yaradıcılığı heç vaxt öz əhəmiyyətini itirməyəcək və onun adı əbədi yaşayacaqdır.

**Hüseyn Cavid:** Cəfər Cabbarlı Azərbaycanın ən parlaq dramaturqlarından biri idi.

**Ədəbiyyat**

1.C.Cabbarlı. Seçilmiş əsərləri. 4 cilddə. Bakı-2005.
2.A.Rüstəmli."Cəfər Cabbarlı: həyatı və mühiti". Bakı-2009.
3.Ə.Xəlilov. "Sənət və sənətkar". Bakı-1974.
4.Y.Qarayev. "Klassik sosialist realizmi – C.Cabbarlı".Bakı-1996.
5.M.Hüseyn. "Ölməz sənətkar". Əsərləri 10 cilddə, 9 cild. Bakı-1979.
6.P.Əfəndiyev. "Cəfər Cabbarlı və xalq yaradıcılığı". Bakı-1985.

## Xülasə

Bu məqalədə böyük yazıçı, şair, dramaturq C.Cabbarlının həyat və yaradıcılığına bir nəzər salınmışdır.

"Elə insanlar olur ki, onların tərcümeyi-halını yazmaq üçün, hər şeydən əvvəl onun mənsub olduğu xalqın, ölkənin tarixini yazmaq lazımdır" – bu sözləri C.Cabbarlı 1928-ci ildə böyük Azərbaycan aktyor və rejissoru Abbas Mirzə Şərifzadənin səhnə fəaliyyətinin 20 illiyinə həsr olunmuş "Əsl ustada alqış" məqaləsində yazmışdı. Onun yazdığı bu fikirləri elə onun özünə də şamil etmək olar.

Azərbaycan ədəbiyyatını, mədəniyyətini, incəsənətini Cəfər Cabbarlısız, onun tarixi pyesləri olan "1905-ci ildə", "Nəsrəddin–şah", "Od gəlini", tamamlanmamış "Əfqanıstan", klassik pyesləri-"Aydın", "Oqtay Eloğlu", "Sevil", "Almas", "Yaşar", "Dönüş" və daha neçə-neçə əsər, kinosenarisiz təsəvvür etmək mümkün deyildir. Onun mədəniyyət və incəsənət sahəsindəki təşkilatçılığı, teatr və kinodakı işi, quruluşçu-rejissor kimi çətin və yorulmaz fəaliyyəti Azərbaycan dramaturqları üçün əvəzolunmaz bir məktəb olmuşdur.

**Açar sözlər:** dramaturq, mədəniyyət və incəsənət, klassik pyeslər, teatr və kino fəaliyyəti, lirik şeirlər, ədəbi irs.

## Резюьме

В данной статье рассматривается жизнь и творчество великого азербайджанского писателя, поэта, драматурга Джафара Джаббарлы.

«Бывают люди, для написания биографии которых необходимо прежде написать историю народа, страны…» Эти слова Джафара Джаббарлы из статьи «Хвала искренному мастеру», посвященной 20-летию сценической деятельностивеликого азербайджанского актера и режиссера Аббаса Мирзы Шарифзаде, высказанные в 1928 году. Эти слова можно отнести и ему самому.

Историю азербайджанской литературы, культуры, азербайджанского искусства невозможно представить без имени Джафара Джаббарлы, без его исторических пьес «Насреддин-шах», «Невеста огня», «В 1905году» и незаконченного произведения «Афганистан», классических пьес «Айдын», «Октай Эльоглу», «Севиль», «Алмас», «Яшар», «Перелом» и множество произведений и киносценарий. Его организаторская деятельность в области культуры и искусства, работа в театре и кино, трудная и неустанная работа в качестве режиссера-постановщика стали незаменимой школой для азербайджанских драматургов.

**Ключевые слова:**драматург, культура и искусство, классические пьесы, деятельность в области театра и кино, лирические стихотворения, литературное наследие.

**Rəyçi: Ədalət Məhəmmədəli oğlu Abbasov., filologiya elmləri doktoru, ADPU-nun"Azərbaycan dili və onun tədrisi texnologiyası" kafedrasının professoru**